# KİTABXANAŞÜNASLIĞIN MƏHƏK DAŞI

**Zöhrə Camalova**

*BDU, Kitabxana işinin təşkili və idarə olunması laboratoriyasının müdiri*

Professor Abuzər Xələfovun həyat yolu hər birimiz üçün nümunə, yaratdığı elmi məktəb kitabxanaşünaslıq sahəsinin məhək daşı hesab olunur. Azərbaycanda kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasının yaradılması və eləcə də bu istiqamətdə hazırlıqlı kadr potensialının formalaşdırılması istiqamətində Əməkdar elm xadimi, professor Abuzər Alı oğlu Xələfovun missiyası ən yüksək hörmət və ehtirama layıqdir. 90 illik yubileyi ərəfəsində alimin xidmətləri, qazandığı elmi nailiyyətlər yenidən təhlil olunur, cəmiyyətə bir daha təqdim edilir.

Bütün ömrünü ölkəmizdə kitabxanaçılıq və informasiyalaşdırma işinin tədrisinin təşkili və bu istiqamətdə ciddi tədqiqatların aparılmasına həsr edən alimin fəaliyyəti nəinki ölkə daxilində, eləcə də beynəlxalq miqyasda dəyərləndirilmişdir. Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universitetinin fəxri professoru olmuş Abuzər Xələfov bir elm fədaisi, yüksək səviyyəli pedoqoq, həmçinin Vətəninin, millətinin təəssübkeşi olmuşdur.

Professor Abuzər Xələfovun akademik və tədrisin təşkili istiqamətində fəaliyyətini izlədikdə ərsəyə gətirdiyi yüzlərlə məqalə, dərs vəsaiti, müvafiq fənnlər üzrə tədris proqramları və monoqrafiyaları aysberqin görünən tərəfi kimi xarakterizə edə bilərik. Görünməyən tərəfi isə bilavasitə bu resurslardan faydalanan və onun əsasını qoyduğu kitabxanaçılıq və informasiyalaşdırma məktəbinin məzunlarının yaratdığı dəyərlə ölçülə bilər. Professor Abuzər Xələfov peşəkar təşkilatçılığı ilə nəinki Universitet, bütövlükdə Azərbaycan elmi ictimaiyyətində özünəməxsusluğu və təşəbbüskarlığı ilə yaddaşlara həkk olmuşdur.